**“COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları”na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması Qaydası” təsdiq edilsin (1 nömrəli əlavə).
2. “Peyvənd Sertifikatı”nın forması” təsdiq edilsin (2 nömrəli əlavə).
3. “Əks-göstəriş Sertifikatı”nın forması” təsdiq edilsin (3 nömrəli əlavə).
4. “COVID-19-RT-PZR Analiz Nəticəsi Sertifikatı”nın forması” təsdiq edilsin (4 nömrəli əlavə).
5. “İmmunitet Sertifikatı”nın forması” təsdiq edilsin (5 nömrəli əlavə).

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 27 noyabr 2021-ci il
371

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2021-ci il 27 noyabr tarixli 371 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**1 nömrəli əlavə**

**“COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması**

**QAYDASI**

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda ölkə ərazisində peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyindən sağalaraq immunitetə malik olan şəxslərə verilən təsdiqedici sənədlərin beynəlxalq səviyyədə tanınması, habelə dövlətlər tərəfindən verilmiş COVID sənədlərinin Azərbaycan Respublikasında tanınması məqsədilə beynəlxalq təcrübəyə uyğun olaraq hazırlanmışdır və ölkə ərazisində həmin sertifikatların tanınması qaydasını müəyyən edir.

1.2. COVID sertifikatlarının tanınmasının məqsədi Azərbaycan Respublikasının vətəndaşlarının, xarici ölkələrin Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik nümayəndəlik və konsulluqlarının, habelə beynəlxalq təşkilatların nümayəndəliklərinin əməkdaşlarının, inzibati-texniki xidmət heyətinə daxil olan şəxslərin və onların ailə üzvlərinin, ölkəmizdə daimi və müvəqqəti yaşayan, Azərbaycan Respublikasında qaçqın statusu almış, habelə BMT-nin Qaçqınlar üzrə Ali Komissarının Azərbaycan Respublikasındakı Nümayəndəliyi tərəfindən himayəyə götürülmüş əcnəbi və vətəndaşlığı olmayan şəxslərin sərbəst şəkildə ölkəyə girişinin, ölkədən çıxışının və tranzit səyahət etmələrinin təmin olunmasıdır.

## 2. Əsas anlayışlar

2.1. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **COVID Sertifikatı** – İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən formalaşdırılan, ölkə daxilində istifadə və xarici ölkələrə səfər etmək üçün nəzərdə tutulmuş və COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiqləyən, sahibinin fərdi, o cümlədən COVID-19 xəstəliyi ilə bağlı sağlamlığının vəziyyəti barədə məlumatları özündə cəmləşdirən, elektron və ya kağız daşıyıcı üzərində olan sənəd;

2.1.2. **xarici COVID Sertifikatı** (bundan sonra – xarici sertifikat) – xarici dövlətin səlahiyyətli orqanı tərəfindən formalaşdırılan, ölkə daxilində istifadə və xarici ölkələrə səfər etmək üçün nəzərdə tutulmuş və COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiqləyən, sahibinin fərdi, o cümlədən COVID-19 xəstəliyi ilə bağlı şəxsin sağlamlığının vəziyyəti barədə məlumatları özündə cəmləşdirən, elektron və ya kağız daşıyıcı üzərində olan sənəd;

2.1.3. **COVID Sertifikatı sahibi** (bundan sonra – sertifikat sahibi) – fərdi və sağlamlıq vəziyyəti barədə məlumatları COVID Sertifikatında əks olunan fiziki şəxs;

2.1.4. **müraciət** – şəxsin və ya onun səlahiyyətli nümayəndəsinin COVID Sertifikatı almaq üçün E-TƏBİB və ya Elektron Hökumət İnformasiya Sisteminin MyGov platforması (bundan sonra – Portal) vasitəsilə sertifikatın əldə olunması üçün müraciəti;

2.1.5. **müraciət edən şəxs** – birbaşa özü və ya səlahiyyətli nümayəndəsi vasitəsilə COVID Sertifikatı almaq üçün müraciət edən Azərbaycan Respublikasının vətəndaşı, xarici ölkələrin Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik nümayəndəlik və konsulluqlarının, habelə beynəlxalq təşkilatların nümayəndəliklərinin əməkdaşları, inzibati-texniki xidmət heyətinə daxil olan şəxslər və onların ailə üzvləri, ölkəmizdə daimi və müvəqqəti yaşayan, Azərbaycan Respublikasında qaçqın statusu almış, habelə BMT-nin Qaçqınlar üzrə Ali Komissarının Azərbaycan Respublikasındakı Nümayəndəliyi tərəfindən himayəyə götürülmüş əcnəbi və vətəndaşlığı olmayan şəxslər;

2.1.6. **COVID-19 xəstəliyi üçün PZR test** – polimeraz zəncirvari reaksiya metodu ilə SARS-CoV-2 virusunun mövcudluğunu təyin etmək üçün test.

## 3. COVID Sertifikatının formalaşdırılmasının əsasları

3.1. Azərbaycan Respublikasında COVID Sertifikatının verilməsi Portal üzərindən həyata keçirilir.

3.2. COVID Sertifikatı müraciət edən şəxs barəsində Portala daxil edilmiş və ya avtomatik şəkildə generasiya olunan aşağıdakı məlumatlar əsasında formalaşdırılır:

3.2.1. şəxsin COVID-19 xəstəliyinə qarşı peyvənd olunması~~, o cümlədən xarici ölkədə birinci doza peyvənd olunması~~;[1]

3.2.2. şəxsin COVID-19 xəstəliyi üçün PZR testin neqativ nəticəsi;

3.2.3. şəxsin COVID-19 xəstəliyindən sağalaraq immunitetə malik olması;

3.2.4. şəxsin peyvəndləməyə əks göstərişi.

3.3. Müraciət edən şəxs tərəfindən fərdi, o cümlədən sağlamlıq vəziyyəti barədə məlumatlarının istifadəsinə razılıq verilməsi şərtilə Portalda olan məlumatlardan COVID Sertifikatının formalaşdırılması məqsədilə istifadə olunur. Müraciət edən şəxsə dair fərdi məlumatlar "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qorunur.

3.4. COVID Sertifikatına unikal elektron identifikator verilir və QR kodu yaradılır.

3.5. Portalda fiziki şəxsin öz COVID Sertifikatının çapetmə cihazı vasitəsilə kağız daşıyıcıda nüsxəsini əldə etməsi üçün imkan yaradılmalıdır.

## 4. COVID sertifikatlarına dair tələblər

4.1. COVID sertifikatlarında aşağıdakı məlumatlar əks olunmalıdır:

4.1.1. **COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı təsdiqləyən Sertifikatda:**

4.1.1.1. Azərbaycan və ingilis dillərində sertifikat sahibinin soyadı, adı, atasının adı, vətəndaşlığı, cinsi;

4.1.1.2. sertifikat sahibinin doğum tarixi;

4.1.1.3. sertifikat sahibinin fərdi identifikasiya nömrəsi ~~(olduğu halda)~~ və sərhədkeçmə sənədinin nömrəsi *(olduğu halda)*;[2]

4.1.1.4. COVID-19-a qarşı peyvənd olunma (peyvənd haqqında məlumat, tibbi istifadə təlimatına uyğun olaraq peyvəndin dozaları, alınan peyvənd dozasının seriya nömrəsi və dozaların vurulma tarixi, peyvənd olunma ölkəsi, peyvənd statusu);

4.1.1.5. sertifikatın unikal nömrəsi;

4.1.1.6. sertifikatın etibarlılıq müddəti;

4.1.1.7. sertifikatı verən dövlət;

4.1.1.8. sertifikatı verən dövlət qurumu barədə məlumat.

4.1.2. **Peyvəndləməyə əks göstərişi təsdiqləyən Sertifikatda:**

4.1.2.1. Azərbaycan və ingilis dillərində sertifikat sahibinin soyadı, adı, atasının adı, vətəndaşlığı, cinsi;

4.1.2.2. sertifikat sahibinin doğum tarixi;

4.1.2.3. sertifikat sahibinin fərdi identifikasiya nömrəsi ~~(olduğu halda)~~ və sərhədkeçmə sənədinin nömrəsi *(olduğu halda)*;

4.1.2.4. sertifikatın unikal nömrəsi;

4.1.2.5. sertifikatın qüvvədə olma müddəti;

4.1.2.6. sertifikatı verən dövlət;

4.1.2.7. sertifikatı verən dövlət qurumu barədə məlumat.

4.1.3. **Neqativ PZR test nəticəsini əks etdirən Sertifikatda:**

4.1.3.1. Azərbaycan və ingilis dillərində sertifikat sahibinin soyadı, adı, atasının adı, cinsi;

4.1.3.2. sertifikat sahibinin doğum tarixi;

4.1.3.3. sertifikat sahibinin fərdi identifikasiya nömrəsi *və sərhədkeçmə sənədinin nömrəsi* (olduğu halda);[3]

4.1.3.4. COVID-19 xəstəliyi üçün neqativ PZR testin nəticəsi (test, bioloji materialdan nümunə götürülmə tarixi və saatı, test nəticəsinin tarixi və saatı, tibb müəssisəsi barədə məlumat).

4.1.4. **COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən Sertifikatda:**

4.1.4.1. Azərbaycan və ingilis dillərində sertifikat sahibinin soyadı, adı, atasının adı, vətəndaşlığı, cinsi;

4.1.4.2. sertifikat sahibinin doğum tarixi;

4.1.4.3. sertifikat sahibinin fərdi identifikasiya nömrəsi ~~(olduğu halda)~~ və sərhədkeçmə sənədinin nömrəsi *(olduğu halda)*;

4.1.4.4. sertifikatın unikal nömrəsi;

4.1.4.5. sertifikatın qüvvədə olma müddəti;

4.1.4.6. sertifikatı verən dövlət;
4.1.4.7. sertifikatı verən dövlət qurumu barədə məlumat;
4.1.4.8. COVID-19 xəstəliyi üçün ilk pozitiv PZR testin tarixi;
4.1.4.9. sertifikatın qüvvəyə minmə tarixi.

## 5. COVID sertifikatlarının və xarici sertifikatların etibarlılığı

5.1. COVID sertifikatlarının etibarlılıq müddəti aşağıdakı kimidir:

5.1.1. COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı təsdiqləyən sertifikat üzrə – *6 ay, həmin müddət bitdikdən sonra peyvənd istehsalçısının istifadə təlimatında 2 doza vurulması nəzərdə tutulan peyvəndin 1 dozasını aldıqda – müddətsiz;*[4]

5.1.2. COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikat üzrə - 6 ay, həmin müddət bitdikdən sonra peyvənd istehsalçısının istifadə təlimatında 2 doza vurulması nəzərdə tutulan peyvəndin 1 dozasını ~~56 gün ərzində~~ aldıqda – müddətsiz;[5]

5.1.3. peyvəndləməyə əks göstərişi təsdiqləyən sertifikat üzrə – Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin ambulator-poliklinik tibb müəssisələrinin peyvəndləmə prosesinə nəzarət komissiyaları tərəfindən göndərilən tibbi arayışlara baxılaraq, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin əsaslandırılmış rəyinə əsasən müəyyən edilmiş müddətə;

5.1.4. neqativ PZR test nəticəsini əks etdirən sertifikat üzrə – 72 saat (nəticənin elan olunduğu saatdan).

5.2. Xarici sertifikatların etibarlılıq müddəti xarici ölkələrin vətəndaşlarına və vətəndaşlığı olmayan şəxslərə münasibətdə beynəlxalq təcrübədə nəzərdə tutulmuş razılaşmalarla, Azərbaycan Respublikası vətəndaşlarına münasibətdə isə bu Qaydanın 5.1-ci bəndinə uyğun olaraq müəyyən edilir.

5.3. COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikat şəxsin pozitiv PZR test nəticəsi tarixindən *7* gün sonra verilir.[6]

5.4. COVID sertifikatlarının elektron və onların kağız şəklində nüsxələri eyni hüquqi qüvvəyə malikdir.

5.5. COVID sertifikatlarının formalaşdırılması və verilməsi beynəlxalq standartlara və qabaqcıl təcrübəyə uyğun olan və etibarlılığının təsdiqlənməsi zamanı qarşılıqlı əlaqəni təmin edən format və alqoritmlərdən istifadə etməklə həyata keçirilir.

5.6. COVID sertifikatlarının və xarici sertifikatların etibarlılığını yoxlamaq üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin müvafiq əməkdaşları sertifikatlarda göstərilən məlumatlara, həmçinin müşayiətedici sənədlərdəki məlumatlara (təqdimatı lazım olduqda) daxil olmaq hüququna malikdirlər, lakin bu məlumatları qeydə ala və hər hansı məlumat bazasında saxlaya bilməzlər.

5.7. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi elektron informasiyanın qarşılıqlı əlaqəsi məqsədilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyini, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyini və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətini COVID sertifikatlarının etibarlılığının müəyyən olunması üçün proqram təminatı ilə təmin edir və aidiyyəti informasiya sistemləri ilə inteqrasiya əsasında zəruri məlumatları ötürür.

## 6. COVID sertifikatının verilməsindən imtina

6.1. COVID sertifikatı aşağıdakı hallarda verilmir:

6.1.1. müraciət edən şəxs fərdi, o cümlədən sağlamlığının vəziyyəti barədə məlumatlarının ötürülməsinə və yayılmasına razılıq vermədikdə;

6.1.2. müraciət edən şəxsin səlahiyyətli nümayəndəsi müraciət edən zaman onun səlahiyyətli nümayəndə olduğu barədə məlumatlar Portalda göstərilmədikdə;

6.1.3. COVID sertifikatını formalaşdırmaq üçün tələb olunan fərdi və ya sağlamlıq vəziyyəti barədə məlumatlar olmadıqda.

6.2. Fərdi və ya sağlamlıq vəziyyəti barədə məlumatların olmaması səbəbindən COVID Sertifikatının verilməsindən imtina edilməsi barədə bildiriş avtomatik olaraq Portal vasitəsilə müraciət edən şəxsə göndərilir. Şəxsin istəyi ilə həmin bildiriş tibb müəssisəsi tərəfindən kağız daşıyıcıda verilə bilər.

## 7. COVID sertifikatlarının və xarici sertifikatların qarşılıqlı tanınması

7.1. COVID sertifikatlarının Azərbaycan Respublikasının hüdudlarından kənarda tanınması və xarici sertifikatların Azərbaycan Respublikasında tanınması məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi beynəlxalq təcrübədə mövcud olan razılaşmaların şərtləri nəzərə alınmaqla və texniki cəhətdən mümkün olduğu təqdirdə, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi vasitəsilə xarici dövlətlərin səlahiyyətli orqanları ilə COVID sertifikatlarında və xarici sertifikatlarda olan məlumatların həqiqiliyinin təsdiqlənməsi funksiyaları olan proqram təminatı ilə mübadiləsini həyata keçirir, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyini, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətini, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətini proqram təminatı ilə təmin edir və aidiyyəti informasiya sistemləri ilə inteqrasiya əsasında zəruri məlumatları ötürür.

7.2. COVID sertifikatlarının Azərbaycan Respublikasının hüdudlarından kənarda tanınmasını tənzimləyən beynəlxalq razılaşmalar COVID sertifikatlarına dair texniki və təhlükəsizlik tələblərindən fərqli şərtlər də nəzərdə tuta bilər. Bu zaman xarici ölkələrin səlahiyyətli orqanları ilə proqram təminatına dair məlumatların mübadiləsi zamanı COVID sertifikatlarına dair texniki və təhlükəsizlik tələblərinin yerinə yetirilməsinə nəzarət Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2021-ci il 27 noyabr tarixli 371 nömrəli Qərarı ilə
təsdiq edilmişdir.
**2 nömrəli əlavə**

## “Peyvənd Sertifikatı”nın
## FORMASI

**AZƏRBAYCAN RESPUBLİKASI**
**THE REPUBLİC OF AZERBAİJAN**

**RƏQƏMSAL COVID SERTİFİKATI | DIGITAL COVID CERTIFICATE**
**PEYVƏND SERTİFİKATI | VACCINE CERTIFICATE**

| | |
|---|---|
| **Soyadı / Surname** | **Adı / Given name** |
| **Atasının adı / Patronymic** | **Cinsi / Sex** |
| **Doğulduğu tarix / Date of birth** | |
| **Vətəndaşlığı / Nationality** | |
| **Fərdi identifikasiya nömrosi / Personal İD** | |
| **Sərhədkeçmə son ad in in nömrəsi / Travel document number** | |
| **Xəstəliyin adı / Disease or agent targeted** | |
| **Peyvənd olunma ölkəsi / Country of vaccination** | |
| **Peyvəndin adı / Vaccine medicinal product** | |
| **İstehsalçı şirkət / Manufacturer** | |

*Dozaların sıra sayı, vurulduğu tarixlər, seriya nömrələri/ Number of doses, injection dates and batch numbers:*
*1.*
*2.*

***Qeyd.*** *Əlavə peyvənd dozaları Sertifikatda göstərilir.*[7]

| | |
|---|---|
| Peyvənd statusu / Status | **Etibarlılıq müddəti / Valid until** |
| **Sertifikatın unikal nömrəsi / Certificate unique number** | |
| **Sertifikatı verən qurum / Issuing Authority** | |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2021-ci il 27 noyabr tarixli 371 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**3 nömrəli əlavə**

## “Əks-göstəriş Sertifikatı”nın

## FORMASI

AZƏRBAYCAN RESPUBLİKASI
THE REPUBLIC OF AZERBAIJAN

**RƏQƏMSAL COVID SERTİFİKATI / DIGITAL COVID CERTIFICATE**
**ƏKS-GÖSTƏRİŞ SERTİFİKATI / CONTRAINDICATION CERTIFICATE**

(Səhiyyə Nazirliyinin Xüsusi Komissiyasının rəyinə əsasən)
(According to the decision of Special Commission of the Ministry of Health)

SOYADI
SURNAME

ADI
GIVEN NAME

ATASININ ADI
PATRONYMIC

DOĞULDUĞU TARİX
DATE OF BIRTH

VƏTƏNDAŞLIĞI
NATIONALITY

CİNSİ
SEX

FƏRDİ İDENTİFİKASİYA NÖMRƏSİ
PERSONAL ID

SƏRHƏDKEÇMƏ SƏNƏDİNİN NÖMRƏSİ
TRAVEL DOCUMENT NUMBER

**SERTİFİKATIN QÜVVƏDƏ OLMA MÜDDƏTİ / VALID UNTIL**

**SERTİFİKATIN UNİKAL NÖMRƏSİ / CERTIFICATE UNIQUE NUMBER**

**SERTİFİKATI VERƏN QURUM / ISSUING AUTHORITY**

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi
The State Agency on Mandatory Health Insurance

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

İCBARİ TİBBİ SIĞORTA

TƏBİB

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2021-ci il 27 noyabr tarixli 371 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**4 nömrəli əlavə**

**“COVID-19 -RT-PZR Analiz Nəticəsi Sertifikatı”nın**

**FORMASI**

COVID-19-RT-PZR Analiz Nəticəsi
COVID-19-RT-PCR Test Result

| | | | |
|---|---|---|---|
| Adı Soyadı<br>Given name Surname | : | Cinsi<br>Sex | : |
| Atasının adı<br>Patronymic | : | Doğum tarixi<br>Birth date | : |
| Testin götürülmə tarixi və saatı<br>Test date and time | : | Laboratoriya<br>Laboratory | : |
| Fərdi identifikasiya nömrəsi<br>Personal Identification number | : | Testin nəticəsinin tarixi və saatı<br>Test confirmation date and time | : |

| Test Adı / Test Name | Nəticə / Result | Referans / Reference |
|---|---|---|
| | | |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2021-ci il 27 noyabr tarixli 371 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**5 nömrəli əlavə**

**“İmmunitet Sertifikatı”nın**

**FORMASI**



AZƏRBAYCAN RESPUBLİKASI
THE REPUBLIC OF AZERBAIJAN

RƏQƏMSAL COVID SERTİFİKATI / DIGITAL COVID CERTIFICATE
İMMUNİTET SERTİFİKATI / CERTIFICATE OF RECOVERY

SOYADI
SURNAME

ADI
GIVEN NAME

ATASININ ADI
PATRONYMIC

DOĞULDUĞU TARİX
DATE OF BIRTH

VƏTƏNDAŞLIĞI
NATIONALITY

CİNSİ
SEX

FƏRDİ İDENTİFİKASİYA NÖMRƏSİ
PERSONAL ID

SƏRHƏDKEÇMƏ SƏNƏDİNİN NÖMRƏSİ
TRAVEL DOCUMENT NUMBER

Xəstəliyin adı
Disease or agent targeted

İlk pozitiv PZR testinin tarixi
First positive PCR test date

Sertifikatın qüvvəyə minmə tarixi
Valid from

Sertifikatın qüvvədə olma müddəti
Valid until

Sertifikatın unikal nömrəsi
Certificate unique number

Sertifikatı verən qurum
Issuing Authority

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi
The State Agency on Mandatory Health Insurance

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

İCBARİ
TİBBİ SIĞORTA

TƏBİB

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 30 dekabr 2021-ci il tarixli **419** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 6 yanvar 2022-ci il, 1, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1543**)
2. 22 yanvar 2022-ci il tarixli **28** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 23 yanvar 2022-ci il, 15, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 1, maddə 79**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 30 dekabr 2021-ci il tarixli **419** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 6 yanvar 2022-ci il, 1, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1543**) ilə "COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması Qaydası"nın 3.2.1-ci yarımbənddən "**, o cümlədən xarici ölkədə birinci doza peyvənd olunması** " sözləri çıxarılmışdır.

[2] 30 dekabr 2021-ci il tarixli **419** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 6 yanvar 2022-ci il, 1, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1543**) ilə "COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması Qaydası"nın 4.1.1.3-cü, 4.1.2.3-cü, 4.1.4.3-cü yarımbəndlərdən "**(olduğu halda)**" sözləri çıxarılsın və həmin yarımbəndlərə "**sənədinin nömrəsi**" sözlərindən sonra "**(olduğu halda)**" sözləri əlavə edilmişdir.

[3] 30 dekabr 2021-ci il tarixli **419** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 6 yanvar 2022-ci il, 1, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1543**) ilə "COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması Qaydası"nın 4.1.3.3-cü yarımbəndə "**nömrəsi**" sözündən sonra "**və sərhədkeçmə sənədinin nömrəsi**" sözləri əlavə edilmişdir.

[4] 30 dekabr 2021-ci il tarixli **419** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 6 yanvar 2022-ci il, 1, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1543**) ilə "COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması Qaydası"nın 5.1.1-ci yarımbənddə "**müddətsiz**" sözü "**6 ay, həmin müddət bitdikdən sonra peyvənd**

**istehsalçısının istifadə təlimatında 2 doza vurulması nəzərdə tutulan peyvəndin 1 dozasını aldıqda – müddətsiz**” sözləri ilə əvəz edilmişdir.

[5] 30 dekabr 2021-ci il tarixli **419** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 6 yanvar 2022-ci il, 1, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1543**) ilə “COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması Qaydası”nın 5.1.2-ci yarımbənddən “**56 gün ərzində**” sözləri çıxarılmışdır.

[6] 22 yanvar 2022-ci il tarixli **28** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 23 yanvar 2022-ci il, 15 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 1, maddə 79**) ilə 1 nömrəli əlavə - “COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması Qaydası”nın 5.3-cü bəndində “**14**” rəqəmləri “**7**” rəqəmi ilə əvəz edilmişdir.

[7] 30 dekabr 2021-ci il tarixli **419** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 6 yanvar 2022-ci il, 1, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1543**) ilə “Peyvənd Sertifikatı”nın forması”nda “**1-ci dozanın tarixi/Date of 1st dose**”, “**2-ci dozanın tarixi/Date of 2nd dose**”, hər iki halda “**Peyvəndin seriya nömrəsi/Batch number**” sözləri “**Dozaların sıra sayı, vurulduğu tarixlər, seriya nömrələri/ Number of doses, injection dates and batch numbers:**

**1.**

**2.**

**Qeyd. Əlavə peyvənd dozaları Sertifikatda göstərilir.** ” sözləri ilə əvəz edilmişdir.